DEVİD RANSİMEN




Tərcüməçi:
Günay Pərvanə Mahmudova

qanun nəşriyyatı

DAVID RUNCIMAN



Bu əsər haqqında danışarkən dünyanın aparıcı siyasi xadimlərindən biri soruşur: siyasət nədir, bu bizə niyə lazımdır və bizim narahat zəmanəmiz hara gedir? Devid Ransimenin kasıblarla varlılar arasındakı uçurumdan tutmuş sosial medianın təsirinə qədər, Makiavellidən tutmuş Hobbs və Veberə qədər bəhs edən bu ətraflı giriş siyasəti öyrənənlər üçün, ya da Danimarkada həyatın Suriyadakından niyə rahat olduğunu bilmək istəyənlər üçün olduqca faydalıdır.

"Animasiya" və "RSA Animates" mükafatına layiq görülən təsvirləri birləşdirən, həm çap, həm də rəqəmli formatda adaptasiya olan əsər 21-ci əsrdə nəyin zəruri olduğunu yenidən və cəsarətlə vurğulayır. Yığcam, aydın, aktual, əyləncəli, orijinal və qlobal miqyaslı "Siyasət" kitabı həm tələbələr, həm də geniş oxucu kütləsi üçündür.

**David Runciman** **POLITICS**
**Devid Ransim** **SİYASƏT**
Bakı, Qanun nəşriyyatı, 2023, 176 səh.

Janr: non-fiction/siyasət
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 31.03.2023

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | Günay Pərvanə Mahmudova |
| Redaktor: | Hədiyyə Şəfaqət |
| Korrektorlar: | Nigar Abdulla, Əyyar Tahir |
| Texniki redaktor: | Əsəd Qaraqaplan |
| Mətn dizaynı: | Pərvanə Şahin |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-587-8

© Qanun Nəşriyyatı, 2023
© David Runciman, 2014

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları
Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri
"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında"
Azərbaycan Respublikasının Qanununa ziddir.

# MÜNDƏRİCAT

Giriş: Siyasət.................................................................... 7

ZORAKILIQ ........................................................................ 17

TEXNOLOGİYA .................................................................... 67

ƏDALƏT............................................................................. 115

EPİLOQ: FƏLAKƏT.............................................................. 160

MƏNBƏLƏR........................................................................ 169

Əlavə oxu üçün .................................................................. 171

# DANİMARKA 2013



# GİRİŞ:
# SİYASƏT




*Siyasət mühümdür.*

Bu gün Suriyada yaşasaydınız, cəhənnəmdə ilişib qalmış olardınız: həyat qorxuducu, zorakı, gözlənilməz, yoxsul və bir çox suriyalı üçün qısadır. Bunları yazdığım vaxt Suriyadakı vətəndaş müharibəsində ölənlərin sayının 60 min ilə 200 min arasında olduğu ehtimal edilir (Ehtimallar arasındakı bu fərq vəziyyətin nə qədər pis olduğunu göstərir; ölülər sanki naməlum dumanın içində yox olublar). Köçkünlərin sayı milyonlara çatır. Ölkədə demək olar, hamı yoxsulluqdan əziyyət çəkir (2013-cü ildə işsizlik təxminən 60% idi). Ağlı başında olan heç kim bu gün Suriyada yaşamaz.

Danimarkada yaşayacaq qədər bəxtəvərsinizsə, bu günədək olan həyat normalarına görə cənnətdə olduğunuzu deyə bilərsiniz: həyat rahat, firavan, təhlükəsiz, mədəni və daimidir. Dünya Danimarkanın


SURİYƏ
2014
PİS OLAN HƏR ŞEYƏ CAVABDEH-MİDİR?
ÖLDÜRÜLƏN SURİYALILARIN SAYI 80.000
8
DİNİ VƏ ETNİK BÖLÜNMƏNİ BİZ İCAD ETMƏMİŞİK

möhtəşəm restoranlarına, yüksək səviyyəli televiziya proqramlarına, zərif dizayn mədəniyyətinə, alicənab sosial təminat müddəalarına, ətraf mühitə, uyğun həyat tərzinə qibtə edir. Danimarka həyat səviyyəsinin və vətəndaş məmnuniyyətinin ölçüldüyü beynəlxalq müqayisələrdə demək olar, həmişə birinci və ya ilk yerlərdə gəlir. Danimarkalılar adətən digər insanlardan daha xoşbəxt olduqlarını deyirlər.

Bəlkə də, hər adam Danimarkada yaşamaq istəməzdi: cənnətin çoxsaylı təsviri kimi bir balaca cansıxıcı ola bilər. Lakin əvvəldən ora ilə bir əlaqəniz yoxdursa, birmənalı olaraq Suriyadansa Danimarkanı seçərdiniz.

Fərq danimarkalıların suriyalılardan daha yaxşı insanlar olması ilə bağlı deyil. Onlara təbiətən daha yaxşı və ya daha ağıllı adamlar demək olmaz, insan dünyanın istənilən yerində insandır. Danimarkalılara daha möhtəşəm təbii üstünlüklər də verilməyib. Hətta əksinədir: Suriya vaxtilə insan mədəniyyətinin beşiyi olmuş bərəkətli ayparanın bir parçası, Danimarka isə çox az sayda təbii sərvətlərə sahib uzaq şimali təcridxanadır. Danimarka gözəlliklərlə doludur, ancaq onların əksəriyyə-



ti torpaqdan əldə edilmir (Danimarka restoranlarının nüfuzu yerli məhsullara əsaslanır, amma yerli məhsul müasir texnologiyanın köməyilə dəyişdirilir; əks təqdirdə, heç kim Danimarka torpağından çıxan həmin məhsullara o qədər pul ödəməzdi).

Danimarka ilə Suriya arasındakı fərq siyasətlə bağlıdır. Siyasət Danimarkanı Danimarka, eyni zamanda Suriyanı da Suriya edib.

Siyasətin əhəmiyyət kəsb etdiyini demək, bir yerdə baş verən hər yaxşı şeydə və ya digər yerdə baş verən hər pis şeydə onun məsuliyyət daşıdığını demək deyil. Danimarkalılar da xoşbəxtliyi siyasətlə bağlamırlar, siyasətçilər dünyanın hər yerində olduğu kimi onları da incidir və əsəbiləşdirirlər. Danimarkalı siyasətçilər sosial təminat və nəqliyyat sistemləri barədə ağız dolusu danışa bilərlər, amma söhbət restoranların dünya miqyasında ən yaxşı və ya dizaynlarının belə cəlbedici olmasından gedirsə, bunu iddia edə bilməzlər. Eynilə, Suriyanın indiki siyasətçiləri də ölkədəki səfalət üçün günahkardırlar, amma ölkədəki ən böyük zorakılığı yaradan dini və etnik ayrı-seçkiliyi onlar meydana çıxarmayıblar. Vətəndaş müharibəsi sünnilərlə şiələri qarşı-qarşıya gətirib, bu qarşıdurma mədəni və tarixi fərqlilikdən qidalanıb, böhran və quraqlığın təsirilə isə alovlanıb. Bütün insani istək və nifrət hisslərinin yaranması siyasətin işi deyil. Həmçinin, siyasət baş verən təbii fəlakət və ya iqtisadi geriləmə üçün də məsuliyyət daşımır. Ancaq onların təsirini ya daha da gücləndirir, ya da yumşaldır. Yaratdığı fərq bundan ibarətdir.

Danimarka bu gün siyasi sabitlikdən sözün əsl mənasında zövq alır, çünki əhalinin münaqişə yaradacaq ciddi həllini gözləyən məsələsi yoxdur. Digər avropalılar kimi danimarkalılar da

immiqrasiya ilə bağlı narahatdırlar. Ancaq Suriya ilə müqayisə olunduğunda onların daxilində ölkəni vətəndaş müharibəsinə gətirib çıxardacaq etnik və ya mədəni parçalanmaların olmadığını görürük.

Sülhsevər və abad Danimarka həm də dünyəvi cəmiyyətdir: din bəzən müdaxilə etsə də, ictimai həyata kölgə salmır. Lakin Danimarka əvvəllər belə deyildi. Beş yüz il bundan əvvəl eynilə Suriyaya bənzəyirdi: dini münaqişələr və fikir ayrılıqları ilə dolu kövrək, qızğın çaxnaşmalı və qeyri-münbit bir yer idi. İnanın, XVI-XVII əsrlərdə Avropanın digər əraziləri kimi Danimarkanın parçalandığı bir vaxtda, oradamı, Suriyadamı yaşamağın daha yaxşı olduğunu müəyyənləşdirmək çox çətin olardı. Həyat hər yerdə mənasız görünürdü. İstənilən halda, Danimarka Skandinav qonşuları ilə bitməyən münaqişələri ucbatından həqiqətən təhlükəli yer idi. Tarixinin böyük bir dövründə Danimarka Avropadakı müharibələrin kəsişmə nöqtəsində qalmışdı. Bu gün Suriyanın sərhədləri ona qalib gəlmiş rəqib güclərin sui-istifadə etdiyi ixtiyari bir tikilidir. Eynilə Danimarkanınkı da.

Buna baxmayaraq, Danimarka müharibədən sülhə, yaşayış iqtisadiyyatından varlı iqtisadiyyata keçid etdi. Əhalinin bir-birilə və qonşu ölkələrlə qarşılıqlı sülhsevər münasibətdə yaşaması üçün, ictimai-siyasi təşkilatlar yaratmaqla dəyişikliklərə nail olundu. Buna necə nail olunduğunu izah etmək elə də asan deyil. Maraqlısı odur ki, yaxşı siyasət keçidin həm əlaməti, həm də səbəbidir. Siyasət Danimarkada söz sahibidir, çünki danimarkalıların daha səbrli olmalarına kömək edir. Amma danimarkalılar siyasətə qarşı səbr nümayiş etdirdikləri üçün söz sahibidir. Bunlar uğurlu siyasi tənzimlənmənin iki tərəfidir.

Sabit təşkilatlar tərəfindən ortaya qoyulan siyasət budur: hər mübahisə və anlaşılmazlıq hansı yollasa müharibə dərəcəsinə çatmadan dayanır. Sabit təşkilatları ortaya çıxaran siyasət də mövcuddur: bütün münaqişələr və razılaşmalar hər hansı bir yolla müharibəni dayandırır. Siyasət hər hansı bir təşkilata çevrilə bilməz. Ondan əvvəl və ya onun nəticəsində meydana gələr.

Siyasi həyatın bu iki tərəfinin ortaq cəhəti hər birinin seçim və məhdudiyyəti birləşdirməsindən ibarətdir. Siyasət, insan qruplarını müəyyən şəkildə yaşamaq üçün bir-biri ilə əlaqələndirən ümumi seçimlərlə bağlıdır. Eyni zamanda, insanların necə yaşayacağına dair həqiqi seçim imkanı verən ictimai birlikdir. Həqiqi seçimlər olmadan siyasət olmaz. Uğurlu siyasi institutlar müəyyən tarixi şəraitin avtomatik məhsulu olsaydı, – mənə doğru iqlim, mədəniyyət, iqtisadiyyat, din, demoqrafiya verin, mən də sizə demokratiya verim – həyat daha asan olardı. Amma bu o qədər də asan deyil. Siyasi təşkilatlar hələ də insanlar tərəfindən formalaşır və insanlar onları məhv etmək üçün əllərindən gələni edirlər. Eyni şəkildə, düzgün siyasi təşkilatlar seçki ehtiyaclarını ortadan qaldırsaydı – mənə demokratiya verin, sizə sülh, inkişaf, bahalı restoranlar və sakit həyat verim – o zaman həyat daha bəsit və daha cansıxıcı olardı. Hətta Danimarkada belə, siyasi təşkilatların uğurlu fəaliyyəti: siyasətçilər və seçicilər tərəfindən təyin edilən, hansı qanunların qəbul olunacağına və onlara tabe olub-olmayacağına dair seçimlər insanların özündən asılıdır. Bu seçimlərdən bəziləri ağrılı ola bilər: hətta varlı, xoşbəxt ölkələrdə belə bəzi seçimlər ölüm-dirim məsələsidir. Siyasətdə heç nə göydəndüşmə deyil. Hər şey seçim və məhdudiyyət arasındakı şərti qarşılıqlı əlaqədən asılıdır: seçim şəraitində məhdudiyyət; məhdudiyyət şəraitində seçim.